16 (1271) 27 aprel - 4 may 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "BİZ AVRASİYANIN ENERJİ XƏRİTƏSİNİ YENİDƏN CIZIRIQ"




*"Biz fəal enerji diplomatiyamızı davam etdiririk. Neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra yaşıl hidrogenə qədər layihələr var".* Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində söyləyib. Dövlətimizin başçısı qeyd edib: *"Bütün bunlardan əlavə, bizim aramızda güclü ötürmə xətləri olacaq və bu, tamamilə yeni vəziyyət yaradacaq. Bir sözlə, biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq".*

## "AZƏRBAYCAN BÜTÜN HƏDƏFLƏRƏ NAİL OLMAQ ÜÇÜN ADDIMLARI DAVAM ETDİRMƏYƏ HAZIRDIR"

*"Enerji sahəsində etibarlı tərəfdaş kimi Azərbaycan bütün hədəflərə nail olmaq üçün addımları davam etdirməyə birmənalı olaraq hazırdır".* Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində bildirib.

*"Eyni zamanda, üç əsas enerji infrastrukturu layihəsinin uğurlu tamamlanmasından sonra biz hazırda Azərbaycanın bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində çalışırıq",* - deyə dövlətimizin başçısı əlavə edib ki, Azərbaycanda ilk külək və günəş enerjisi stansiyalarının tikintisi artıq başlayıb.

## "PREZİDENT ƏLİYEV AZƏRBAYCANIN ETİBARLI TİCARƏT TƏRƏFDAŞI OLDUĞUNU SÜBUT ETDİ"

Bu sözləri Bolqarıstan Prezidenti Rumen Radev aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində bildirib.

On ildən artıq müddət əvvəl imzalanan müqaviləyə əsasən, Bolqarıstanın artıq bir ildən çoxdur Azərbaycan tərəfindən etibarlı şəkildə təchiz olunduğunu vurğulayan Prezident Rumen Radev deyib: **"Bütün qlobal siyasi faktlara baxmayaraq, Azərbaycan müqavilənin şərtlərinə ciddi şəkildə əməl edir. Azərbaycan təkcə Bolqarıstanın deyil, həm də Avropa İttifaqının strateji tərəfdaşıdır. Bu, ötən ilin iyulunda, Azərbaycanın Avropa Komissiyası ilə enerji sektorunda strateji əməkdaşlığa və xüsusilə Avropa İttifaqına əlavə həcmdə qaz təchizatına dair Memorandum imzalaması ilə təsdiq olundu".**

## "GEOSİYASİ VƏZİYYƏT, İLK NÖVBƏDƏ, BİRLİKDƏ OLMAĞI VƏ ƏN YAXŞI HƏLLƏR AXTARMAĞI TƏLƏB EDİR"




**"Daha bir mühüm məqam ondan ibarətdir ki, bu təşəbbüs bizim ambisiyalarımızın səviyyəsini artırır. İndi biz artıq digər daha mühüm layihələr barədə danışmağa başlamışıq. Biz gələcəyin enerjisi - yaşıl hidrogenin nəqli barədə danışmağa başlamalıyıq".**

Bu sözləri Bolqarıstan Prezidenti Rumen Radev aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində bildirib.

İmzalanma mərasimindən sonra Prezident İlham Əliyev ilə birlikdə SOCAR-ın Sofiyada yeni ofisinin açılışını edəcəklərini vurğulayan Bolqarıstan Prezidenti bildirib: "Bolqarıstanın tənzimləyici qurumu artıq "SOCAR Trading"ə Avropa ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyasını təsdiqləyib. Cənab Prezident Əliyev, mən bu münasibətlə Sizi təbrik etmək istərdim və inanıram ki, biz gələcəkdə uğur qazanacağıq. Çünki geosiyasi vəziyyət, ilk növbədə, birlikdə olmağı və ən yaxşı həllər axtarmağı tələb edir".

## "BİZ AVROPAYA TƏBİİ QAZIN İDXALI ÜÇÜN AZƏRBAYCANLA ƏMƏKDAŞLIQ ETMƏYƏ HAZIRIQ"

Bunu Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində bildirib.

Nazir bildirib: *"Slovakiya Azərbaycandan əlavə qaz təchizatını təmin etmək üçün regionumuzdakı qaz ötürücü sistemi operatorlarının mövcud infrastrukturundan istifadə edilməsi və onun müasirləşdirilməsi çağırışını alqışlayıb.*

*Mən qazötürücü sistem operatorlarımızın Azərbaycandan Mərkəzi və Şərqi Avropaya yeni dəhlizin yaradılması ilə bağlı təşəbbüsünün reallaşdırılmasına və SOCAR ilə əməkdaşlığa Slovakiya İqtisadiyyat Nazirliyinin tam dəstəyini ifadə etmək istəyirəm".*

## "AZƏRBAYCAN Aİ-NİN ETİBARLI TƏRƏFDAŞI OLDUĞUNU SÜBUTA YETİRDİ"




Bunu Avropa İttifaqının (Aİ) energetika məsələləri üzrə komissarı Kadri Simson Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində deyib.

*"Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün Azərbaycan tərəfindən təchiz olunan enerji təchizatı həlledici oldu. Komissiya Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üçün əlavə səyləri dəstəkləyir",* - deyə Aİ-nin komissarı bildirib.

## "BU İLİN SONUNDAN MACARISTANA VƏ SLOVAKİYAYA QAZ TƏCHİZATINA BAŞLAMAĞI PLANLAŞDIRIRIQ"




2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qazı çatdırdıq, bu il isə 12 milyard kubmetri hədəfləyirik.

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində bildirib. Bu gün Azərbaycan qazının Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edildiyini söyləyən dövlətimizin başçısı deyib: *"Bu ildən başlayaraq qaz Rumıniyaya da çatdırılır. Əgər bütün lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən biz Macarıstana və Slovakiyaya qaz təchizatına başlamağı planlaşdırırıq".*

## "AZƏRBAYCAN VƏ SOCAR NEFT TƏCHİZATI ÜÇÜN ETİBARLI VƏ DÜRÜST TƏRƏFDAŞLARDIR"



"Mən neft və qaz mühəndisiyəm, Sovet İttifaqının dağılmasından sonrakı onilliyi xatırlayıram. Mən İttifaqın dağılmasından sonra neft hasilatı üzrə Azərbaycanın yeni neft layihələrini xatırlayıram. İnanıram ki, biz indi qaz bazarı sahəsində ölkələrimizin Azərbaycanla əməkdaşlığının yeni fəslinə start verəcəyik".

Bu sözləri Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində söyləyib.

Azərbaycan neftinin uzunmüddətli olduğunu bildirən Karel Hirman qeyd edib: "Azərbaycan və SOCAR neft təchizatı üçün uzunmüddətli, etibarlı və dürüst tərəfdaşlardır. Hesab edirəm ki, növbəti onillikdə biz yaxşı tərəfdaş olacağıq və birlikdə ölkələrimizin Azərbaycanla əməkdaşlığının yeni erasını yaradacağıq".

# Laçın yolunda sərhəd təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Hökumətinin legitim hüququdur



"Ermənistan parlamentinin spikeri Alen Simonyanın Laçın-Xankəndi yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi təsis edilməsi ilə bağlı sosial şəbəkələrdə verdiyi açıqlama qəbuledilməzdir. Bu, Azərbaycanın daxili işlərinə növbəti müdaxilə cəhdidir, bölgədə sülh və əmin-amanlığa töhfə vermir.

Ermənistan rəsmiləri, həmçinin parlamentin spikeri açıqlama və bəyanatlarında beynəlxalq birliyi Azərbaycana qarşı qarayaxma kampaniyasına alət etmək, o cümlədən bu məqsədlə Beynəlxalq Ədalət Məhkəməsinin məlum qərarını təhrif etmək cəhdlərindən çəkinməlidir".

Bu fikirlər Milli Məclisin mətbuat xidmətinin Ermənistan parlamentinin spikeri Alen Simonyanın Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi haqqında bəyanatı ilə bağlı mətbuata açıqlamasında qeyd edilib.

Açıqlamada, həmçinin deyilir: "Vurğulamaq lazımdır ki, sərhəd təhlükəsizliyinin, o cümlədən hərəkətin təhlükəsizliyinin təmin edilməsi milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir. Laçın yolunda sistemli və genişmiqyaslı qanunsuz məqsədlər üçün sui-istifadənin qarşısının alınması və sərhəd təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Hökumətinin legitim hüququdur. Azərbaycan Hökumətinin bu qərarı da qanunsuz hərəkətin qarşısını almaq, ölkə ərazisinə nizamlı giriş-çıxışı təşviq etmək məqsədinə xidmət edir.

Ermənistan tərəfinin bu qərarın guya Azərbaycan, Rusiya Federasiyası və Ermənistan liderlərinin 10 noyabr tarixli üçtərəfli Bəyanatına zidd olması istiqamətində iddiaları tamamilə əsassız və həqiqətdən uzaqdır. Məhz Ermənistan sözügedən bəyanatın müddəalarını kobud şəkildə pozaraq, ötən müddət ərzində Laçın yolundan qanunsuz hərbi məqsədlər üçün istifadə edib. O cümlədən üçtərəfli Bəyanatın 4-cü bəndinə zidd olaraq Azərbaycan ərazisində qalmaqda davam edən erməni silahlı birləşmələrinin şəxsi heyətinin rotasiyası və silah və sursatın daşınması həyata keçirilib. Yol vasitəsilə minaların daşınaraq sonradan Azərbaycan Respublikasının suveren ərazilərində basdırılması xüsusilə ağır fəsadlar doğurub, mina partlayışları nəticəsində çoxlu sayda vətəndaşımız həlak olub və yaralanıb.

Azərbaycan Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və humanitar yüklərin maneəsiz hərəkətini tam təmin edir.

Ermənistan tərəfini regionda gərginliyi artıracaq hərəkətlərdən, sülh danışıqlarına müxtəlif bəhanələrlə maneçilik törətməkdən çəkinməyə, ölkələrin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında Azərbaycan münasibətlərin qurulması səylərinə məsuliyyətlə yanaşmağa çağırırıq".

# Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Sahibkarlar Gününə həsr olunmuş konfrans keçirilib

Ümummilli Liderin Azərbaycanda bazar iqtisadiyyatının formalaşmasında, sahibkarlıq ənənələrinin bərpasında və inkişafında danılmaz xidmətləri var. 21 il bundan əvvəl – 2002-ci il aprelin 25-də Ümummilli Lider Heydər Əliyevin yerli sahibkarlarla, may ayında isə xarici iş adamları ilə tarixi görüşləri olub. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 21 aprel tarixli Sərəncamı ilə 25 aprel tarixi artıq 8 ildir ölkəmizdə Sahibkarlar Günü kimi qeyd olunur.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi və Sahibkarlar Günü ilə bağlı aprelin 25-də "Gülüstan" sarayında İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "Heydər Əliyev



və Azərbaycanda sahibkarlığın inkişafı" mövzusunda konfrans keçirilib.

Tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

# Sahibkarlığın ÜDM-də payı 81 faizə çatıb



Dövlətimizin başçısının həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, 2022-ci ildə iqtisadi artım 4,6 faiz təşkil edib, xüsusilə qeyri-neft-qaz sektoru 9,1 faiz artıb.

Bu barədə Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev deyib.

O bildirib ki, bu dövrdə qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcminin 14 faiz artması, əsas kapitala yönəldilmiş investisiyaların 70 faizinin bu sahəyə yönəldilməsi ölkədə sahibkarlığın inkişafının real göstəricisidir. Həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində ölkəmizdə özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, sahibkarlığın ümumi daxili məhsulda payı 81 faizə, məşğulluqda payı 77 faizə çatıb.

# Azərbaycan–Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi sülhə aparan yeganə yoldur



Fransanın "Musulmans en France" nəşrində Azərbaycanın Rus İcması sədrinin birinci müavini, siyasi icmalçı Anastasiya Lavrinanın "Azərbaycan–Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi sülhə aparan yeganə yoldur" sərlövhəli məqaləsi dərc olunub. Müəllif öz yazısına ritorik sualla başlayır: "Hansı dövlət könüllü olaraq qonşu ölkəyə öz ərazisinə silah-sursat, minalar və terrorçuların daşınmasına razılıq verər?"

Məqalədə Ermənistanla Azərbaycan arasında İkinci Qarabağ müharibəsinin başa çatması haqqında məlumat verilir. Bildirilir ki, Azərbaycan Ordusu qısa vaxt ərzində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyib, çoxlu şəhər və kəndləri çoxillik erməni işğalından azad edib. Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağın incisi olan Şuşa şəhərinin azad edilməsindən sonra erməni ordusu kapitulyasiya edib, Azərbaycanla atəşkəsə dair sənəd imzalamağa hazır olduğunu bildirib.

Sonra məqalədə qeyd edilir: "Üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra Ermənistanda praktiki olaraq qisasçı bəyanatlar səslənib, onlar yeni müharibəyə və öz nöqteyi-nəzərlərindən itirilmiş əraziləri qaytarılmasına dair çağırışlar ediblər. Erməni diasporu bütün dünyada, xüsusən Fransa və ABŞ-da öz lobbiçilik fəaliyyətini genişləndirib, Azərbaycanı "təcavüzkar" kimi qələmə verməyə çalışır. 2020-ci il noyabrın 15-də Fransa Senatı Azərbaycana qarşı qərəzli qətnamə qəbul edib. Bu sənəddə sanksiyalar tətbiq edilməsi tələb olunur. Bu, Bakının İrəvana qarşı xoş məramına görə ermənilərin "sağ ol" deməsidir. Üçtərəfli Bəyanatın imzalanmasından iki il sonra Ermənistan iki ən mühüm müddəanı yerinə yetirməyib, qanunsuz erməni hərbi birləşmələri hələ də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycanın Qarabağ bölgəsindən çıxarılmayıb. Uzun sürən iki il ərzində Qarabağa qanunsuz olaraq silah-sursat, hərbi texnika, minalar, diversiya qrupları, hətta bəzən üçüncü ölkələrin vətəndaşları göndərilib.

2021-ci ilin dekabrında Fransa prezidentliyinə əsas namizəd Valeri Pekress bir neçə fransız deputatın müşayiəti ilə qanunsuz olaraq Xankəndi şəhərinə gedib, orada Azərbaycan əleyhinə şüarlar səsləndirib. Erməni həyasızlığının ən eybəcər nümunəsi isə erməni mənşəli qaçqın Rusiya milyardçısı Ruben Vardanyanın meydana çıxması və özünü Qarabağ ermənilərinin təmsilçisi adlandırmasıdır. O, həmin əraziyə yenə də həmin Laçın yolu ilə gəlib.

Yuxarıda sadalananlar göstərir ki, Ermənistan sülhü yalnız sözdə istəyir, əməldə isə regionda sabitliyi pozmaqda davam edir.

Azərbaycan rəhbərliyinin və xalqının səbri sonsuz deyil. İrəvanın məsələləri sülh yolu ilə həll etmək üzrə istəkli olmadığını görən Bakı öz sərhədini nəzarətə götürmək kimi suveren hüququndan istifadə etdi: aprelin 23-də Ermənistanın Azərbaycan ərazisinə canlı qüvvə, silah-sursat, minalar, həmçinin hərbi təyinatlı digər vasitələr göndərməsinin qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının dövlət sərhəd xidmətinin bölmələri tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsi quruldu. Bununla da İrəvanın Azərbaycan ərazilərində qanunsuz fəaliyyətini davam etdirmək, sülh sazişinin imzalanmasını gecikdirmək planlarına son qoyuldu.

Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü rəsmi olaraq tanıdı və indi İrəvan Prezident İlham Əliyevin sülh təşəbbüslərini qəbul etməli, beynəlxalq hüquqa əsaslanan dayanıqlı sülhə nail olmaq üçün konstruktiv danışıqlara başlamalıdır. Regionu sülhə və tərəqqiyə məhz bu yol apara bilər".

# Azərbaycanın inkişafında şəffaf işləyən sahibkarların böyük rolu var

***Müstəqillik dövründə rekord göstərici - ötən il dövlət büdcəsinə vergi daxilolmaları 15,5 milyard manat təşkil edib.***

Ötən il Azərbaycanın xarici ticarət dövriyyəsi 55 faizdən çox artıb və 52,6 milyard ABŞ dolları, ixrac isə 71,8 faiz artaraq 38 milyard dollardan çox olub. İqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının yüksəldilməsi istiqamətində tədbirlər nəticəsində 2022-ci ildə qeyri-neft məhsullarının ixracı 12,3 faiz artaraq 3 milyard dollardan çox təşkil edib.

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov aprelin 25-də "Heydər Əliyev və Azərbaycan sahibkarlığın inkişafı" mövzusunda keçirilən konfransda videomüraciətində deyib.

Nazir bildirib ki, Ulu Öndərin yorulmaz fəaliyyəti, aparılan islahatlar nəticəsində qısa müddət ərzində Azərbaycanda siyasi və iqtisadi sabitlik təmin edildi, iqtisadiyyatın yenidən qurulması, davamlı inkişaf mərhələsi başlandı. Sahibkarlığın inkişafı istiqamətində dövlət proqramları qəbul olundu, bu sahənin tənzimlənməsinə və dəstəklənməsinə yönələn tədbirlər həyata keçirildi. Özəl sektorun uğurlu inkişaf siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal çağırışlar fonunda yeni nailiyyətlərlə davam etdirilir. Dayanıqlı inkişaf edən Azərbaycanda özəl sektorun gücləndirilməsi sosial-iqtisadi inkişaf strategiyasının daim mərkəzindədir və bu sahədə sistemli işlər həyata keçirilir. Nəticədə Azərbaycan iqtisadiyyatının inkişaf dinamikasında müsbət meyillər getdikcə artır. 2022-ci ildə ÜDM 4,6 faiz artaraq 133,8 milyard manat, qeyri-neft/qaz sektorunda isə 9,1 faiz artaraq 69,8 milyard manat təşkil edib. ÜDM-in tərkibində qeyri-neft/qaz sektoru üzrə bir sıra sahələrdə əhəmiyyətli artım qeydə alınıb. Ötən il dövlət büdcəsinə vergi daxilolmaları 82 faiz artıb və 15,5 milyard manat təşkil edib. Bu, müstəqilliyimiz dövründə olan mütləq rekord məbləğdir. Hökumət tərəfindən müəyyən edilmiş bir sıra fiskal imtiyazlar və güzəştlər fonunda belə nəticələrin əldə edilməsi müsbət bir haldır. Ən sevindirici hal isə ondan ibarətdir ki, ödənilən vergilərin, xüsusilə qeyri-neft sektorunda 80 faizdən çoxu özəl sektorun payına düşür.

M.Cabbarov diqqətə çatdırıb ki, bu dəstək mexanizmləri ilə yanaşı, Qarabağın iqtisadi dəyər zəncirinə reinteqrasiyası və Naxçıvanın iqtisadi potensialının yüksək səviyyədə reallaşdırılması iqtisadi artımın təkanverici qüvvələri kimi çıxış edəcək. Şübhəsiz ki, yaxın gələcəkdə qarşımızda duran əsas məsələ işğaldan azad edilmiş ərazilərimizin bərpası və özəl sektorun Qarabağa qayıdışı ilə bağlı olacaq. Bu proses bizim vətəndaşlarımızın Böyük Qayıdışı ilə üst-üstə düşür. Bir sıra rayon və şəhərlərin baş planları artıq təsdiq edilib, baza infrastrukturunun yaradılması istiqamətində işlər tam gücü ilə davam etdirilir. Eyni zamanda, sahibkarlarımızı və investorları Qarabağa investisiya yatırmağa və biznes qurmağa bir daha dəvət edirəm. Dövlət tərəfindən bu məqsədlə zəruri dəstək təmin olunur və bundan sonra da ediləcək. Araz Vadisi İqtisadi Zonası və Ağdam sənaye parklarında sahibkarlar üçün əlverişli şərait yaradılıb. İşğaldan azad olunan ərazilərimiz üçün vergi güzəştləri təsdiq olundu. Bu tədbirlər işğaldan azad olunan ərazilərimizə sərmayələrin cəlbinə, sahibkarlığın inkişafına və əhalinin sosial təminatının daha da gücləndirilməsinə xidmət edəcək. Bütün bunlar bir daha göstərir ki, dövlət daim sahibkarın yanındadır və biz nəticəyönümlü tədbirlər, effektli dəstək və güzəşt mexanizmləri ilə özəl sektorun davamlı və etibarlı inkişafına nail oluruq.

İqtisadiyyat naziri Mikayıl Cabbarov videomüraciətində ölkəmizdə bazar münasibətləri prinsipləri əsasında iqtisadiyyatın, o cümlədən özəl sektorun formalaşması və inkişafında Ulu Öndərin rolu, bu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi barədə danışıb.

# “Səndən söyləyəcək daima dillər”





*Heydər Əliyevin 100 illik yubileyi 23 saylı məktəbdə qeyd olunub.*

“Heydər Əliyev ili” çərçivəsində Bakı şəhəri, Nəsimi rayonu T.Həsənov adına 23 saylı məktəbdə müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Ulu Öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işinin daha da gücləndirilməsi məqsədilə “Səndən söyləyəcək daima dillər” adlı tədbir keçirilib.

Tədbirdə şagirdlər Heydər Əliyevin qeyri–adi idarəçilik bacarığından, yüksək vətənpərvərliyindən, uzaqgörən və məqsədyönlü siyasətindən ürəkdolusu danışdılar, Ulu Öndərə olan məhəbbəti, sevgini hazırladıqları səhnəciklərdə, şeirlərdə, rəqslərdə əks etdirdilər. **Tədbirdə Milli Məclisin deputatı Ziyad Səmədzadə, Azərbaycan Dillər Universitetinin prorektoru, Milli Məclisin deputatı Tamam Cəfərova, “Yeni Azərbaycan”qəzetinin Baş redaktoru Alqış Musayev, AzTV Mədəniyyət kanalında dünya azərbaycanlılarının mədəniyyət platforması olan “Körpü” verilişinin ideya müəllifi və aparıcısı, Azərbaycan Yazıçılar Birliyinin Cənubi Azərbaycan Komissiyasının sədri, Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri Sayman Aruz, şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü Arzu Əsəd, Elm və Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin sektor müdiri Qeyrət Şirəliyev, Nəsimi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Bəybala Quliyev, Tofiq İsmayılov adına 6 №li məktəb-liseyin direktoru Orucova Gülşən iştirak etdilər.**

Tədbir iştirakçıları, qonaqlar tədbirdən böyük ruh yüksəkliyi ilə ayrıldılar. Qeyd edək ki, Nəsimi rayonu T.Həsənov adına 23 saylı məktəbin VI,VII, VIII sinif şagirdləri “Heydər Əliyev ili" çərçivəsində müstəqil Azərbaycan dövlətinin qurucusu və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Ulu Öndərə olan sevgi və məhəbbəti əks etdirərək Onun imzasını, 100 rəqəmini göstərmək məqsədilə fleşmob hazırlayıblar.

Fleşmobda ümumilikdə 190 şagird - Ulu Öndərin imzasını yaratmaq üçün 135, 100 rəqəminin düzülüşündə isə 55 şagird iştirak edib.

# Azərbaycanda fəaliyyət göstərən biznes subyektlərinin 99,7 faizini KOB subyektləri təşkil edir

Bu barədə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin (KOBİA) sədri Orxan Məmmədov deyib.

O bildirib ki, KOBİA özünün hədəf seqmentləri olan startap, mikro, kiçik və orta sahibkarlıq üzrə biznesin yaradılmasından başlayaraq, fəaliyyətlərinin bütün mərhələlərində müxtəlif vasitələrlə onlara dəstək göstərməklə, dövlət qurumları ilə KOB subyektləri arasında körpü rolunu oynamaqdadır. KOB subyektlərinin yeni bölgüsü meyarlarının tətbiq edildiyi, eləcə də KOBİA-nın fəaliyyətə başladığı 2018-ci ildən ötən 4 il ərzində KOB subyektlərinin sayı 45 faiz artaraq 356 minə yaxınlaşıb.

Bu dövr ərzində KOB-ların qeyri-neft ÜDM-ində payı 23,5 faizdən 26,6 faizə, qeyri-neft ixracında payı isə 2019-cu ildəki 23,3 faizdən 59,8 faizə yüksəlib.

# Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə birinci rübdə 4 milyard 899,5 milyon manat vergi daxil olub

Cari ilin birinci rübündə Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 4 milyard 899,5 milyon manat vergi daxil olub ki, bu da ötən ilin müvafiq dövründəkindən 74,8 faiz və ya 2,1 milyard manat çoxdur. Bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov deyib.

“Sahibkarlarımız əvvəlki dövrlərə nisbətən daha şəffaf işləyirlər. Əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 353,9 min artıb və aprelin 1-nə 1.755,8 minə çatıb. Qeyri-neft-qaz sektorunun özəl bölməsində bu göstərici 298,1 min artaraq 838 min təşkil edib”, - deyə nazir müavini vurğulayıb.

O bildirib ki, muzdlu işçi sayının və əməkhaqqı fondunun “ağarması” sayəsində təkcə cari ilin yanvar-mart ayları ərzində məcburi dövlət sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,9 faiz və ya 145,3 milyon manat artaraq, 1 milyard 192,7 milyon manata çatıb.

# İqtisadi jurnalistikanın tədrisi və təbliğinin bəzi məsələləri

***Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyini bərpa etməsindən sonra iqtisadi sahədə çox ciddi addımlar atıldı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin zəhmətinin nəticəsi olaraq, ölkənin sosial-iqtisadi inkişafı və dünya birliyinə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitlik əldə edildi və iqtisadiyyatın bütün sahələrini əhatə edən ciddi addımlar atıldı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görüldü.***

Heydər Əliyev strateji irsinin layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən bu gün ölkədə sahibkarlığın inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması, qeyri-neft sektorunun inkişafı istiqamətində ciddi işlər görülür, iqtisadiyyat bütün sahələrə əsaslı şəkildə nüfuz edir. Bu isə öz növbəsində iqtisadi məsələlərin işıqlandırılmasında peşəkarlıq, jurnalist kadrları hazırlayan müəssisələrdə ixtisaslaşmasının vacibliyi məsələsini gündəmə gətirir. Çünki iqtisadi bilikləri cəmiyyətə çatdırmaq çox məsuliyyətli və maksimum diqqət tələb edir.

İqtisadi bilik və məlumatların çatdırılmasında dərin araşdırmaların aparılmasının vacibliyi, kadr məsələsi ilə bağlı özünü göstərən çətinliklərlə əlaqədar bir neçə mütəxəssislə görüşüb söhbət etdik. Ekspertlər kimi, “ARB 24” televiziyasının Baş redaktor müavini, filologiya üzrə fəlsəfə doktoru Aynur Nəsirova, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC Analitik qrupun rəhbəri, Azərbaycan Respublikasının Əməkdar jurnalisti, filologiya üzrə fəlsəfə doktoru Faiq Hüsiyev və AzTV-nin Sosial və iqtisadiyyat proqramları Baş Redaksiyasının Baş redaktoru Aytən Abdulovanın fikirlərini öyrəndik. Onlara Jurnalistika fakültəsinin tələbələrinin iqtisadi bilik səviyyəsi, bu sahədə mövcud hazırlığı və iqtisadi materiallarla işləmək bacarığı ilə əlaqədar suallar ünvanladıq.

ARB 24 televiziyasının nümayəndəsi işə qəbul prosesində sırf iqtisadi yönümlü proqramlar üçün jurnalistlərin seçimində uyğunsuzluqların, bunun isə əsas olaraq jurnalistika fakültəsinin məzunlarının iqtisadiyyatda baş verən real prosesləri işıqlandırmaqda çətinlik çəkmələri ilə bağlı olduğunu qeyd etdi.

Sosial və iqtisadiyyat proqramları Baş Redaksiyasının baş redaktoru isə Jurnalistika fakültəsini bitirən tələbələrin iqtisadi bilik səviyyələrinin çox az, hətta bəzilərinin ümumiyyətlə olmadığını bildirmişdir. Onun sözlərinə görə, televiziya özünün şəxsi keyfiyyətləri baxımından operativlik tələb edən kütləvi informasiya vasitəsidir: ***“Belə bir KİV-də isə iqtisadi sahədə çalışan jurnalistdən ikiqat bacarıq tələb olunur. Çünki iqtisadi sahə maksimum dəqiqlik tələb edir. Ona görə də əslində jurnalistika fakültəsinin məzunlarının iqtisadi biliyinin olmasına çox böyük ehtiyac olsa da, təəssüf ki, onlarda bu ehtiyacı qarşılayacaq tələblərə rast gəlinmir.”***

***“Təcrübə göstərir ki,jurnalistika fakültəsinin məzunları sırf iqtisadi materialların hazırlanmasında dərin bacarığa malik deyillər”,*** - deyən Analitik qrupun rəhbəri jurnalistika fakültələrinin məzunlarının ümumiyyətlə müasir televiziya kadrları səviyyəsində hazırlanmadığını bildirmişdir: ***“Bu sahədə müəyyən boşluqlar var. Bu gün hətta pedaqoji təhsil müəssisələri də jurnalist hazırlayır. Bu nə dərəcədə düzgündür? Odur ki, bu mövzu böyük bir müzakirə tələb edir.”***

Mütəxəssislərin sözlərinə görə, iqtisadi proqramlar üçün jurnalistlər seçərkən Jurnalistika fakültəsinin tələbələrinə deyil, iqtisadi biliyə üstünlük verilir. A.Nəsirova bunu belə izah edir ki, iqtisadi məzmunlu verilişlərdə iqtisadi savad çox önəmlidir. Lakin burada da müəyyən problemlərə təsadüf olunur: ya iqtisadi savadı olan efirlə uyğunlaşa bilmir, yaxud da efirə uyğun namizədin iqtisadi biliyi kifayət etmir.

Baş redaktorun fikri isə bu yöndədir ki, mövcud reallıqlar baxımından iqtisadi təhsili və biliyi olanlara üstünlük verilməsi daha məqsədəuyğundur: ***“Çünki əgər bir jurnalistin içərisinə düşdüyü və haqqında yazacağı sahə haqqında informasiyası zəifdirsə, həmin sahəyə aid olan məlumatların üzərində işləməsi də mümkünsüzdür, yaxud arzuolunan səviyyədə olmayacaqdır. Təbii ki, zamanla bu problemlərin qaydaya düşməsi və həlli mümkündür. Lakin nəzərə alsaq ki, ölkədə jurnalist yetişdirən, bu sahədə tələbənin də kifayət qədər zamanını sərf etdiyi ali təhsil müəssisələri var, o zaman sonra yenidən əlavə vaxt sərf etmək sadəcə vaxt itkisi hesab oluna bilər.”***

F.Hüsiyevin fikrincə, “İstehsalat prosesinə, telekanallarda peşəkar jurnalistika fəaliyyətinə cəlb edilmiş universitet məzunları bir qayda olaraq ancaq və ancaq uzun bir müddətdən sonra konkret mövzunu, o cümlədən iqtisadi mövzuları mənimsiyə bilirlər. Nəzəri biliklərin azlığı, həmçinin öyrənmək həvəsinin məhdudluğu özünü göstərir”, lakin bununla belə “Spesifik mövzular hazırlayan müxbirlərin sırf jurnalistika fakültəsinin məzunları olması əslində o qədər də önəm daşımır. Yetər ki, konkret mövzunu mənimsəmiş olsunlar. İstiqamətləndirmək üçün isə kifayət qədər rəhbər heyət var.”

Bu gün universitetlərdə tədris olunan iqtisadi biliklərin jurnalistlərin iqtisadi materiallarla işləməsi üçün kifayət etmədiyini bildirən mütəxəssislər məsələnin uzun illərdən bəri var olsa da, hələ də həll olunmamasını mühüm bir problem olaraq vurğulamışlar. Analitik qrupun rəhbəri bunun həm də intellektual bazanın kasadlığı, mövzunu tam şəkildə mənimsəməmək, analitik uzlaşmanı aparmamaqla bağlı olduğunu bildirmişdir.

**Gənc jurnalistlərdə iqtisadi sahədə mövcud olan əsas çatışmazlıqlar kimi mütəxəssislər tərəfindən bunlar qeyd olunmuşdur:**

*- Bir çoxlarının iqtisadi sahədə özünü təkmilləşdirməyə çalışmaması;*
*- İqtisadiyyatın spesifik sahə olduğundan çətin görünməsi və ondan uzaq durulması;*
*- Bir çox ali təhsil müəssisələrində bu yöndə təhsilin arzuolunan səviyyədə olmaması;*
*- Pedaqoqların tələbələri iqtisadi sahəyə yönləndirməkdə təşəbbüskar olmaması;*
*- Jurnalistika fakültəsinin tələbələrinə iqtisadi biliklərin kifayət edəcək dərəcədə aşılanmaması;*
*- Fəaliyyət prosesinə qədər ixtisaslaşmanın aparılmaması;*
*- İqtisadi bilik səviyyəsinin çox aşağı olması;*
*- Təqdim olunan xəbərdən lazım olan informasiyanı seçə bilmək bacarığının olmaması;*
*- İqtisadi terminlərə bələdsizlik və s.*

***“Düşünürəm ki, təhsilin sonuncu kursundan etibarən tələbələr arasında ixtisaslaşdırılma aparılmalı və onlar müvafiq redaksiyalarda bir-neçə aylıq təcrübəyə cəlb edilməlidirlər. Mütərəqqi televiziyaçı tipi deyəndə, həmin adamın hərtərəfli bilik səviyyəsinə və peşəyə yiyələnmək potensialına, həmçinin dünyagörüşünə də baxmaq lazımdır. Təəssüflər olsun ki, hətta indinin özündə belə ədəbi dil normalarını bilməyən, ekvatorla Ekvadoru dəyişik salanlar, Luvr kəlməsinin qız adı olduğunu zənn edənlər, Süveyş kanalının Fars körfəzində olduğunu yazanlar istehsalat prosesində çalışırlar. Odur ki, savadlı məzunlar arasından seçim etmək bizim üçün prioritetdir. Doğrudan da, hər şeyi peşəkar kadrlar həll edirsə, deməli, onları layiqlilərin sırasından seçib hazırlamaq lazımdır”,*** - deyə Əməkdar jurnalist əlavə etmişdir. ARB 24 kanalının nümayəndəsi onu da qeyd edir ki, jurnalist iqtisadiyyatı bilirsə, əlbəttə, cəmiyyətə də xeyri dəyəcəkdir,çünki iqtisadiyyatı bilməyən birinin bu sahədə süjet hazırlaması sadəcə plan doldurmağa hesablanıb, auditoriyaya heç bir xeyri olmayacaqdır. Jurnalist iqtisadi sahədə biliklidirsə, o, məlumatı sadə dildə tamaşaçıya çatdırmağı bacaracaq, bununla da onların maarifləndirilməsinə dəstək verməklə, cəmiyyətə lazımi informasiyanı verə biləcəkdir.

***“İqtisadi sahədə maarifləndirmə prosesində jurnalistlərin çox böyük rolu vardır. Çünki, məsələn, ölkədə pensiya islahatı həyata keçirilib və jurnalist onu qısa, konkret və aydın şəkildə çatdırmalıdır. Burada jurnalistin rolu əldə etdiyi məlumatı sadələşdirərək çatdırmaqdır. Lakin təəssüflər olsun ki, bəzən bu tipli sosial-iqtisadi məlumatlar dolaşıq və uzun-uzadı şəkildə cəmiyyətə təqdim olunur, anlaşılmasında da kifayət qədər çətinliklər özünü göstərir”,*** - deyən baş redaktor onu da əlavə etmişdir ki, müxtəlif iqtisadi terminlərin cəmiyyət tərəfindən anlaşılması çox zaman problemlər yaradır. Bu kimi məsələlərdə televiziya jurnalistinin üzərinə çox böyük məsuliyyət düşür.

**Mövcud çatışmazlıqların həlli məsələsinə toxunduqda isə mütəxəssislər çıxış yolu olaraq bunları qeyd edirlər:**

*- İqtisadi savadlılığın artırılması istiqamətində lazımi addımların atılması;*
*- Zəif kadr potensialı probleminin ortadan qaldırılması;*
*- Jurnalistika fakültəsində iqtisadi biliklər sadəcə bir yarım il deyil, daha uzun müddət tədris olunmalıdır;*
*- Təhsil müddətdində son tədris illərində ixtisaslaşmanın həyata keçirilməsi;*
*- Təqdim olunan xəbərdən lazım olan informasiyanı seçə bilmək bacarığının formalaşdırılması.*

**Məsələ ilə əlaqədar uzun illər KİV-də, televiziya kanallarında iqtisadi mövzularda geniş çıxışlar edən millət vəkili, akademik, “İqtisadiyyat” qəzetinin təsisçisi Ziyad Səmədzadə isə bu fikirdədir ki, gənc jurnalistlərin iqtisadi sahədə biliklərinin təkmilləşdirilməsinə, xüsusi kursların təşkilinə, iqtisadi jurnalistika ilə əlaqədar ədəbiyyatların sayının artırılmasına, dərs vəsaitlərinin hazırlanmasına ehtiyac var. Ən başlıca məsələ isə bütün bu proseslərin mərkəzində Vətənə sevgi, ölkəyə bağlılıq dayanmalıdır. Qalib dövlətin uğurlarını təmin edən siyasətin incəliklərinə bələd olaraq, milli-mənəvi dəyərlərin də təbliğinə çalışmaq lazımdır.**

Araşdırma nəticələrinin ümumiləşdirməsinə əsasən, belə qənaətə gəlmək mümkündür ki, ölkədə jurnalistika ixtisasını tədris edən fakültələrdə iqtisadi sahədə ixtisaslaşmaya ehtiyac var. Bu, ali təhsil ocaqlarını bitirən jurnalistlər üçün də önəmlidir.

**Mətanət HÜSEYNOVA**

# Sahibkarlığın inkişafı prioritet istiqamətdir



"Azərbaycan ötən əsrin 60-cı illərində keçmiş Sovet İttifaqı ölkələri arasında geridə qalsa da, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmiz qısa zamanda inkişaf etmiş sənaye respublikasına çevrildi". Bunu Azərbaycan Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov İqtisadiyyat Nazirliyinin, KOBİA və ASK-nın təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda sahibkarlığın inkişafı" mövzusunda keçirilən tədbirdə deyib.

O bildirib ki, Ulu Öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də ölkəmizdə ağır iqtisadi vəziyyət hökm sürürdü. Həmin dövrdə Ümummilli Lider siyasət gündəliyinə sahibkarlığın inkişafını ön plana saldı. Sahibkarlığın inkişafını təmin edən hüquqi baza formalaşdırıldı, sahibkarların maliyyə resurslarına çıxışının asanlaşdırılması üçün bank-maliyyə sektorunda islahatlar həyata keçirildi. Ulu Öndər sahibkarlığa dövlət dəstəyinin müxtəlif formalarını əks etdirən mühüm addımlar atdı, sahibkarların fəaliyyətinə yaradılan süni əngəllərə qarşı mübarizə apardı. Bu məqsədlə 1999-2000-ci illərdə imzalanmış müxtəlif fərmanlarda dövlət nəzarətinin təkmilləşdirilməsi və süni əngəllərin aradan qaldırılması üçün kompleks tədbirlər nəzərdə tutuldu.

**"Sahibkarlığın inkişafı müasir dövrdə də dövlətin prioritet istiqamətidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, sahibkarlığın inkişafı Azərbaycanın inkişafının əsasını təşkil edir. Bu sahənin inkişafı üçün 2017-ci ildə KOBİA təsis olunub. Prezidentin Sərəncamına əsasən, kiçik və orta biznesin inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirilir"**, - deyə o əlavə edib.

# Xarici bazarlara tədarükün şaxələndirilməsi üçün tələb olunan ixrac prosedurları müzakirə edilib



İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun təşkilatçılığı ilə pomidor ixracatçıları ilə görüş keçirilib.

AZPROMO-dan bildirilib ki, tədbirdə agentliyin dəstək mexanimzləri haqqında məlumat verilib, ixrac coğrafiyasının genişləndirilməsinin vacibliyi vurğulanıb, xarici bazarlara tədarükün diversifikasiyası üçün tələb olunan ixrac prosedurları ilə bağlı müzakirələr aparılıb.

Görüşdə AZPROMO tərəfindən yeni bazarların araşdırılması və yeni əməkdaşlıq əlaqələrinin yaradılması üçün beynəlxalq sertifikatların alınması prosesi və qəbul edilmiş keyfiyyət standartlarının meyarları haqqında danışılıb, ixracatçıların sualları cavablandırılıb.

# "Ağıllı Sənaye Hazırlığı İndeksi" qiymətləndirmə metodunun tətbiqinə başlanılıb



İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) ölkəmizdə fəaliyyət göstərən şirkət və müəssisələrdə rəqəmsal hazırlığın ölçülməsi və rəqəmsallaşmanın sürətləndirilməsi istiqamətində tədbirlərini davam etdirir.

Nazirlikdən bildirilib ki, 4SİM ilə Dünya İqtisadi Forumunun Türkiyə Respublikasındakı Dördüncü Sənaye İnqilabı Mərkəzinə ev sahibliyi edən Türkiyə Metal Sənayeçilər Birliyi (MESS) arasında imzalanmış anlaşma memorandumunda müəyyənləşdirilmiş istiqamətlər üzrə əməkdaşlıq çərçivəsində dövlət qurumları və özəl müəssisələrdə "Ağıllı Sənaye Hazırlığı İndeksi" (SIRI) qiymətləndirməsinin tətbiqinə start verilib. Bu qiymətləndirmə metodunun "SOCAR Polymer" şirkətində tətbiqi ilə bağlı 4SİM və bu şirkət arasında əməkdaşlığa dair müqavilə imzalanıb. Ölkəmizdə ilk olaraq tətbiq olunacaq bu xidmət çərçivəsində "SOCAR Polymer" şirkətinin istehsalat və biznes proseslərinin, eləcə də müxtəlif məlumatların təhlili aparılacaq, şirkətin rəqəmsal hazırlıq və Sənaye 4.0 üzrə mövcud vəziyyətinə dair hesabat, eləcə də smart transformasiya sahəsində növbəti 2-3 il ərzində inkişaf üzrə yol xəritəsi hazırlanacaq. "SOCAR Polymer" şirkətində "SIRI" qiymətləndirməsi prosedurlarına aprelin 24-də başlanılıb.

# "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizmi təqdim olunub



Aprelin 25-də İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) və Sahibkarlığın İnkişafı Fondunun (SİF) birgə təşkilatçılığı ilə Sumqayıt Kimya Sənaye Parkında "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün güzəştli maliyyə imkanları" mövzusunda tədbir keçirilib. İZİA-dan bildirilib ki, Sahibkarlar Gününə həsr olunmuş tədbirdə İZİA-nın idarəçiliyində olan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının rezidentlərinə SİF-in güzəştli kredit mexanizmləri barədə məlumat verilib. Həmçinin "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizminin təqdimatı keçirilib, sahibkarların sualları cavablandırılıb.

# İnformasiya və rabitə sahəsinə xərclənən vəsaitin həcmi açıqlanıb

Cari ilin yanvar-mart aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 2,5 faizi informasiya və rabitə sahələrində xidmətlərin göstərilməsinə sərf olunub. AZƏRTAC Dövlət Statistika Komitəsinə istinadla xəbər verir ki, əsas kapitala yönəldilmiş vəsaitin 88,2 milyon manatı informasiya və rabitə sahəsinin, o cümlədən 85,3 milyon manatı rabitənin payına düşüb.

# "Azərkosmos" Özbəkistanda "Kosmik texnologiyalar konfransı"nda iştirak edir



Azərbaycan Respublikasının Kosmik Agentliyi – "Azərkosmos"un nümayəndə heyəti aprelin 25-27-də Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən "Kosmik texnologiyalar konfransı"nda iştirak edir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, Avrasiya regionunda artıq növbəti dəfə keçirilən bu tədbirdə regionun kosmik agentlikləri və beynəlxalq kosmik ictimaiyyətin maraqlı tərəfləri təmsil olunur. Konfransın gündəliyində beynəlxalq əməkdaşlıq, sürətlə böyüyən qlobal kosmik sənayenin imkanları, müşahidə və rabitə peykləri, onların tətbiq sahələri, kosmik sahədə innovasiyalar və bu sahəyə qoyulan investisiyalar barədə müzakirələr əskini tapıb.

"Azərkosmos"un sədri Saməddin Əsədov "Regional əməkdaşlıq, beynəlxalq investisiya və kosmik sənayenin davamlı inkişafı"na həsr olunmuş sessiyada çıxış edib. S.Əsədov çıxışında ölkəmiz üçün kosmik sahənin əhəmiyyətindən, son 10 il ərzində Azərbaycanın kosmik sahədəki fəaliyyəti, peyklərin resursları vasitəsilə Avropa, Afrika və Mərkəzi Asiya ölkələrində həyata keçirilən layihələr və yeni imkanlardan bəhs edib.

Tədbirdə qonaqlara 2023-cü ildə paytaxtımızda keçiriləcək 74-cü Beynəlxalq Astronavtika Konqresinin Azərbaycan, xüsusilə regionda kosmik sahənin inkişafına stimul olacağı bildirilib. Görüş vasitəsilə türk dövlətlərinin kosmik ictimaiyyəti, o cümlədən gəncləri Bakıda keçiriləcək Konqresə dəvət olunub.

# Azərbaycanda "İkarus" avtobusları istehsal olunacaq



İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti STP Şirkətlər Qrupu ilə Macarıstanın "İkarus" şirkəti arasında anlaşma memorandumu imzalanıb.

İZİA-dan AZƏRTAC-a bildirilib ki, anlaşma memorandumunu STP-nin Baş direktoru Ruslan Ağabəyli və "İkarus" şirkətinin Baş direktoru Zoltan Tanko imzalayıb.

Sənədə əsasən, şirkətlər bir neçə istiqamətdə əməkdaşlıq edəcəklər. Bu istiqamətlər arasında "İkarus" avtobuslarının Azərbaycanda istehsalı, illik 100 ədəd avtobusdan 500 ədəd avtobusa istehsal gücünün artırılması, yaxın gələcəkdə Qarabağ regionunda istehsalın lokallaşdırılması, servis mərkəzinin yaradılması və digər məsələlər nəzərdə tutulub.

# Əməkhaqqı fondu 6 faiz artıb

Əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 0,5 faiz və ya 9 493 müqavilə artaraq 1 milyon 755 min 802-ə çatıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Trend-ə verilən məlumata görə, əməkhaqqı fondunda 6 faiz artım qeydə alınıb.

Məşğulluq imkanlarının artırılmasına, qeyri-rəsmi məşğulluğun leqallaşmasına yönələn kompleks tədbirlər nəticəsində əmək müqavilələrinin sayında artım davam edir.

Bu ilin birinci rübündə də ölkəmizdə əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 9 493 müqavilə və ya 0,5 faiz artaraq 1 milyon 755 min 802-yə çatıb.

Aparılan əməkhaqqı islahatları və əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunun da davamlı olaraq artması ilə nəticələnir. 2023-ci ilin yanvar-mart aylarında əməkhaqqı fondunda daha 6 faiz artım qeydə alınıb.

Ümumilikdə son 5 ildə əmək müqavilələrinin sayında 34 faiz, əməkhaqqı fondunda 2,5 dəfə artım baş verib.



# Çay, bal və qənnadı məhsulları istehsal edən şirkət nümayəndələri ilə görüş keçirilib

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport.az" portalının rəhbəri Ayxan Qədəşov "Fresh Oil", "Caiykhor" və "Mr. Bee" şirkətlərinin nümayəndələri ilə görüşüb.

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, görüşdə şirkətlərin "Amazon" və "Ebay" platformaları üzərindən Amerika bazarına çıxarılması istiqamətində görüləcək işlər müzakirə olunub. Bununla yanaşı, görüş ərzində beynəlxalq e-ticarət platformalarında bənzər məhsullara dair nümunələrə baxış keçirilib, lazımi qeydlər götürülüb.

Tədbirdə "USAID" nümayəndələri də iştirak edib. Təşkilat nümayəndələri tərəfindən məhsulların Amerika bazarına ixracı üçün tələb olunan sertifikatlaşdırma və digər zəruri addımlar barədə qarşılıqlı müzakirə aparılıb.

# Время работает на Алиева: армяне покинут Карабах
## ВЗГЛЯД ИЗ ТБИЛИСИ



Я не буду писать о том, что происходит в Карабахе и вокруг него. Я не гражданин Армении, не гражданин Азербайджана, информацию о событиях получаю только из интернета, стало быть, знаю о ситуации на месте далеко не всё.

Кроме того, будучи гражданином Грузии, я не могу позволить себе такую бестактность, как рассуждать на азербайджанском сайте о событиях в Карабахе.

Зато я могу рассказать о том, как все это выглядит со стороны, издалека. Без каких-либо претензий на истину в последней инстанции и, главное, не неся за этой какой-либо ответственности. Как известно, оспорить можно любой вывод. Но в данном случае речь не о том, что происходит на самом деле, а как ситуация вокруг Карабаха воспринимается более или менее информированным человеком со стороны.

Триумфальная месть Азербайджана

Итак, первое, что сразу же бросается в глаза - Азербайджан на гребне куража. Он уверен в себе, ничего не боится и полон решимости довести ситуацию до развязки, которая его полностью устраивает.

Азербайджанцы владеют так называемым «преимуществом победителя». То есть доминируют не только в военном плане, но и психологически. Что закономерно, если учесть, что тридцать лет их национального унижения закончились в 2020 году триумфальной местью.

И неправы те, кто скажет, что это только политика, и человеческий фактор не имеет в данном случае никакого значения. Еще как имеет! Ведь желание отомстить за обиды, копившиеся десятилетиями, оно такое же естественное, как стремление восстановить территориальную целостность своей страны.

Если, конечно, вы не мать Тереза...

На руку Баку играют как внутренние, так и внешние факторы: и в демографическом, и в экономическом, и в финансовом плане Азербайджан объективно сильнее Армении.

Добавьте к этому уверенность и кураж победителя, чтобы стало абсолютно ясно – тормозить Баку не намерен и не будет.

Что же касается внешних факторов, то их сразу два, причем оба - в пользу Азербайджана. Во-первых, это Турция – во всех отношениях мощный союзник, чьи связи с Азербайджаном носят не только партнерский, но и братский характер. Из чего, кстати, вовсе не следует, что в случае очередного регионального обострения турки будут напрямую воевать с армянами. Этого не было в 2020 году, не будет и в обозримом будущем. Стратегическая функция Анкары заключается в том, чтобы быть противовесом Москвы.

Когда началась Вторая Карабахская война, Анкара ясно дала понять, что не будет сидеть сложа руки, если Россия вмешается в конфликт. В Москве этот сигнал услышали и благоразумно дистанцировались.

И в самом деле, не воевать же России с Турцией!

Мне могут возразить, что и у Армении есть неслабый союзник – Иран.

Что особенно заметно в последнее время. Тем не менее Тегеран вряд ли ввяжется на стороне Армении в войне с Азербайджаном и Турцией – не в том сегодня положении Исламская республика. Понятно, что восточное многословие Тегерана, драматическое заламывание рук, театральные жесты, привычные угрозы «стереть с лица земли» – все это, безусловно, возможно, но только на словесном уровне.

Растерянная Армения

Что же касается положения Армении, то завидовать тут, скажем прямо, нечему. Синдром проигравшего – страшная вещь. Он лишает сил, деморализует и дезорганизует, он обескровливает как людей, так и страны.

Послевоенная Армения испытывает огромную внутреннюю неопределенность, она как бы на распутье – что делать дальше? Куда идти? С кем и против кого?..

Армяне всегда ценились способностью сплачиваться в трудный момент, ставить общественные интересы выше личных.

В советские времена среднестатистические граждане моей республики часто повторяли: «Мы, грузины, слишком разобщены, каждый сам по себе, все друг с другом конфликтуют… А вот армяне – они единые, друг другу всегда помогают и, главное, сор из своей избы не выносят».

Кто знает, может, на самом деле все не так, и армяне – такой же типичный кавказский народ, как и десятки других, с присущим ему индивидуализмом и отсутствием к самоорганизации.

Но, повторю, так армяне выглядят со стороны.

Однако в сегодняшней Армении чувство единства именно не ощущается и это, наверное - главный удар, который нанесла Армении Вторая карабахская война. У этой нации, возможно, впервые за долгие годы, нет единого видения ситуации, нет четкого понимания того, где враги, а где союзники. Сколько армян – столько мнений, и ни одно не преобладает. Улица бурлит, в политике постоянные конфликты, в Карабахе на глазах зреет очередной кризис, а Ереван понятия не имеет, что со всем этим делать.

Синдром проигравшего усугубляется тем, что после 1993 года армяне привыкли ощущать себя победителями. На этом чувстве, приятно бодрящим национальное самосознание, выросло несколько поколений армян. Лишиться этого без соответствующей психологической подготовки за какие-то 44 дня – это тяжелейший, труднопереносимый психологический стресс в масштабах целого народа.

Армения словно зависла в неопределенности. Что делать? Уступить Азербайджану, открыть границы и начинать думать о налаживании отношений со своими мощными тюркскими соседями? Но консенсуса по этому поводу в обществе нет. Не говоря уже о том, что если ты «за», то ярлык предателя интересов армянского народа тебе гарантирован пожизненно. А тут еще армянская диаспора, которая также является мощным фактором влияния на политику официального Еревана, с которой тоже нужно все согласовать.

И самое главное, непонятно, кто же теперь истинный союзник Армении – Россия или Запад? В принципе, Россия могла бы «прикрыть» Армению силой своей армии и оружия, но имея на своем юго-западном фланге тяжелейшую украинскую кампанию, Москва не может себе позволить даже символический конфликт с Турцией.

С другой стороны, Россия не готова просто так, безмолвно отказаться от своей геополитической роли на Южном Кавказе. А потому пытается по мере возможностей не то чтобы помочь Армении, но символически подставить ей плечо.

Запад не поможет на 100 процентов

С другой стороны, Запад обещает армянам политическую поддержку, быструю евроинтеграцию, прогресс в экономике, открытие границ, в общем, «молочные реки и кисельные берега»…

Казалось бы, ну что мешает Еревану сказать Москве последнее «прощай» и развернуться, наконец, в сторону Запада? Как выясняется, мешает один, но весьма существенный фактор – в случае, если Азербайджан решит вооруженным путем восстановить контроль над всем Карабахом, вопрос, поможет армянам Россия или нет, можно рассматривать в пропорции 50:50. Тогда как Запад не поможет на все сто процентов.

Что армянам делать в такой ситуации? Оставаться с Россией, продолжая гробить перспективы евро ориентации в надежде, что русские авось да помогут? Или окончательно отказаться от Карабаха, идти на Запад и строить европейское государство?

«Однако, дилемма», - как говорят коренные жители Восточной Сибири. Налево пойдешь - задушат, направо – застрелят, выбор, как вы понимаете, не самый приятный. В особенности, когда понимаешь, что в тупике оказалась целая страна.

И на вершине этой бурлящей пирамиды находится премьер-министр Никол Пашинян, который, судя по всему, понятия не имеет, что делать. Его колбасит и трясет, он мечется из стороны в сторону и делает противоречивые заявления. Утром он за открытие Зангезурского коридора, вечером против. В одном интервью он заигрывает с Западом, в другом утверждает, что его неправильно поняли. Сегодня он не впускает в Армению Марго Симонян, а завтра выдает Москве россиянина, который разыскивается у себя на родине за отказ идти в армию...

И так - каждый день, почти во всем. Ну ни в жизнь не поймешь, в чем, собственно, заключается позиция Пашиняна и его команды! Так и хочется сказать: «Да определитесь вы наконец, господа! Вы на правом фланге или на левом?..»

Увы, определяться у команды Пашиняна не получается никак. Возможно, потому что на самом деле хорошего выбора у Армении просто нет: надо либо продолжить упираться в Карабахе, передоговориться с русскими и блокировать открытие границ, либо, наоборот, понять, что Карабах потерян, а значит, эвакуировать оттуда армян и идти на альянс с Западом в Европу.

Так оно это или нет, точно сказать не могу. Но ручаюсь, что со стороны все выглядит именно так, как я это описал.

На штурм Баку не пойдет

Также со стороны все похоже на то, что ни сейчас, ни в обозримом будущем на штурм Карабаха Баку не пойдет. Да и зачем, собственно? Нет в этом никакой необходимости, поскольку спешить Алиеву некуда - время и процессы однозначно работают на него.

Президенту Азербайджана не нужно даже вводить блокаду Карабаха: одно лишь ощущение того, что над тобой солдаты на азербайджанском блокпосту, которые могут тебя впустить, а могут и развернуть, лишает армян Карабаха какой-либо перспективы.

Их не нужно выдворять из этих мест или, хуже того, объявлять им войну. Достаточно лишить их перспективы развития и заставить поверить, что так будет не просто очень долго, а так будет ВСЕГДА.

В результате они сами все поймут и сделают выбор. После чего постепенный отток армянского населения из Карабаха в Армению или в Россию станет логическим завершением победы Азербайджана, достигнутой 20 ноября 2020 года.

Так, во всяком случае, все это выглядит со стороны.

*Тенгиз Аблотия,*
*автор haqqin.az, Тбилиси*

# К годовщине Чернобыльской аварии

26 апреля 1986 г. в 01:23 произошла самая страшная техногенная катастрофа в истории человечества – авария на Чернобыльской атомной электростанции. 37 лет отделяют нас от тех трагических событий.

Катастрофа на Чернобыльской АЭС по масштабам радиоактивного выброса и своих дальнейших последствий намного превзошла подобные аварии, произошедшие до и после нее: в Уиндскейле (Великобритания, 1957 году), на объекте «Маяк» (СССР, 1957 год), Три Майл Айлэнде (США, 1979 год), АЭС «Фукусима-1» (Япония, 2011 год).

В той или иной мере результаты аварии на ЧАЭС затронули более двух десятков стран, что говорит о ее глобальном характере. Однако основной удар пришелся на Республику Беларусь – около 35% радиоактивных выпадений осели на ее территории.

Несмотря на существующую до аварии, с 1963 года, сеть гидрометеорологических станций и радиационного мониторинга, где проводились измерения мощности дозы гамма-излучения, йода-131 и цезия-137 в воздухе, ощущалась нехватка специалистов-радиологов, радиоэкологов, радиобиологов, разработчиков и производителей радиометрического оборудования. В коротком периоде потребовалось расширение сети радиационного мониторинга, оперативное создание лабораторий спектрометрии, радиационного контроля поверхностных вод, почвы и воздуха.

Так, шаг за шагом была проведена кропотливая работа по созданию оптимальной системы радиационного мониторинга, которая сегодня представлена 120 пунктами наблюдений по всей стране, и, прежде всего, в районах воздействия ядерных установок – Игналинской, Смоленской, Ровенской, Чернобыльской и собственной Белорусской АЭС. Республиканским центром по гидрометеорологии, контролю радиоактивного загрязнения и мониторингу окружающей среды Минприроды исследуются воздух, почва, поверхностные и подземные воды, донные отложения. Современная система радиационного мониторинга является продуктом многолетних усилий белорусских управленцев, ученых и специалистов, ответом на вызов чернобыльской катастрофы.

Беларусь приобрела вынужденный опыт управления ситуацией в условиях долговременного радиоактивного загрязнения большой территории (23% общей площади), часть которой в значительной степени утрачена для экономики страны, но, благодаря накопленному опыту, создана научная школа в данной области, передовое производство оборудования радиационного контроля, развиты системы законодательства, медицинской и социальной защиты, контроля радиоактивного загрязнения, радиационного мониторинга, управления сельским и лесным хозяйством на загрязненных территориях.

Данный опыт открыл пути для принятия стратегических решений, направленных на обеспечение безопасной жизнедеятельности в условиях проживания на территориях долгосрочного радиоактивного загрязнения, производства нормативно чистой сельскохозяйственной продукции, возрождение и сохранение культурных традиций пострадавших районов.

Устойчивое социально-экономическое развитие загрязненных в результате аварии на ЧАЭС территорий имеет общенациональное значение, способствует преодолению сложившихся в обществе «чернобыльских» стереотипов, формированию положительного имиджа пострадавших районов, продвижению их инвестиционной привлекательности, достижению равноправного с другими районами республики взаимовыгодного межрегионального и международного сотрудничества.

Для реализации государственной задачи устойчивого социально-экономического развития и возрождения загрязненных территорий за счет средств республиканского бюджета за последние годы выполнен ряд специальных проектов, которые обеспечили создание новых производств, а также модернизацию уже имеющихся, внедрение современных технологий и привлечение инвесторов. Указанная деятельность обеспечивает развитие инфраструктуры возрождающихся районов, делает условия жизнедеятельности более привлекательными для населения, способствует развитию местной инициативы.

Постоянно совершенствуется и «чернобыльская» нормативная правовая база страны. В 2009 году вступил в силу Закон Республики Беларусь «О социальной защите граждан, пострадавших от катастрофы на Чернобыльской АЭС, других радиационных аварий», в 2012 году – Закон Республики Беларусь «О правовом режиме территорий, подвергшихся радиоактивному загрязнению в результате катастрофы на Чернобыльской АЭС», в соответствии с которым все населенные пункты, расположенные на территории радиоактивного загрязнения, зонируются в зависимости от уровней радиоактивного загрязнения.

Перечень населенных пунктов и объектов, находящихся в зонах радиоактивного загрязнения (Перечень), в зависимости от изменения радиационной обстановки утверждается и пересматривается Советом Министров Республики Беларусь не реже одного раза в пять лет.

Со страшного дня чернобыльской катастрофы, разделившей жизни миллионов людей на «до» и «после», прошло уже 37 лет. За это время существенно изменилась радиационная обстановка на территориях радиоактивного загрязнения, в частности, уровни и состав радиоактивного загрязнения.

Так, количество населенных пунктов, находящихся в зонах радиоактивного загрязнения, уменьшилось на 1515, количество объектов – на 179.

На сегодняшний день, согласно действующему Перечню, утвержденному в феврале 2021 года, к зонам радиоактивного загрязнения относятся 2022 населенных пункта и 49 объектов.

В Гомельской области количество населенных пунктов, находящихся в зонах радиоактивного загрязнения, уменьшилось на 650, в Могилевской – на 426, в Брестской – на 114, в Гродненской – на 115, в Минской области – на 206.

*Qarabağın görkəmli simaları*

# Lətif Səfərov (1920-1963)



Azərbaycan aktyoru, rejissor, ssenarist, Azərbaycan SSR əməkdar incəsənət xadimi (1960) Lətif Səfərov 1920-ci il sentyabrın 30-da Şuşada doğulmuşdur. 7 yaşında ikən rejissor Leo Murun "Gilan qızı" ("Tunc ay") filmində çəkilmiş, sonra yaradıcı heyətlə birlikdə Bakıya gələrək studiyada ştata qəbul olunmuşdur. 1928-1931-ci illərdə "Sevil", "Lətif", "Şərqə yol", "Qızıl kol" filmlərində uşaq rollarını oynamışdır. Ancaq sonradan xəstələndiyi üçün Bərdəyə gəlmiş, 1931-ci ildə Gəncə Pedaqoji Texnikumuna daxil olmuş və qiyabi təhsil almışdır. Yenə Bakıya qayıdıb, əvvəl studiyanın dublyaj şöbəsində, sonra isə filmlərdə rejissor assistenti kimi çalışmışdır.

1940-cı ildə Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil olmuş, Rus kinorejissoru Qriqori Kozintsevdən sənətin sirlərini öyrənmişdir. Müharibə başladığı üçün təhsilini yarımçıq qoyaraq Bərdəyə qayıtmış və 1941-1946-cı illərdə burada müəllimliklə məşğul olmuşdur. 1946-cı ildə Moskvaya geri dönərək təhsilini davam etdirmişdir. 1950-ci ildə təhsilini başa vurub və peşəkar kinematoqrafçı kimi Bakıya dönüb, kinostudiyada işləməyə başlamış, 50-ci illərin əvvəllərində bir neçə sənədli filmə quruluş vermişdir. 1955-ci ildə ona "Sevimli mahnı" ("Bəxtiyar") filmini çəkmək həvalə olunmuşdur. Bu lentlə o, böyük kinoda ilk filmini yaratmışdır. Filmin ssenarisini Boris Laskin və Nikolay Rojkov qələmə almışdı və ssenari nə qədər beynəlmiləl ruhlu idisə, film bir o qədər milli alınmışdı. O, baş rola Rəşid Behbudovu dəvət etmişdi. Çünki filmin bəstəkarı Tofiq Quliyevin lirik mahnıları məhz belə bir müğənninin rola dəvət olunmasını tələb edirdi. Rəşid Behbudovun "Arşın mal alan" filmindəki uğuru onun özünü də kinoya bağlamışdı. Beləliklə, Rəşid Behbudov bu filmilə özünün yeni bir ekran triumfunu etmiş oldu. "Bəxtiyar" filmi Azərbaycan kinosunda musiqili bədii filmin ən layiqli nümunəsinə çevrildi. Tofiq Quliyevin filmdəki "Zibeydə", "Qızıl üzük", "Bakı" mahnıları dillər əzbəri oldu. Rejissor bu filmdə həm də çox maraqlı bir aktyor ansamblı yarada bilmişdi. Rəşid Behbudovla yanaşı, aktyorların - Ağasadıq Gəraybəyli, Ağahüseyn Cavadov, Münəvvər Kələntərli və digərlərinin oyunu filmin ümumi ahənginə xüsusi təsir göstərmişdi.

"Qızmar günəş altında", "Leyli və Məcnun" kimi filmləri ilə Azərbaycan kinosuna yeni nəfəs gətirən Lətif Səfərov ekranın estetik funksiyası ilə bağlı nəzəri görüşlərini müəyyən qədər də olsa, reallaşdıra bilmişdir. Lətif Səfərov 1958-ci ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri seçilib. Sonra "Koroğlu" filmini lentə almağa başlamışdır. 1963-cü ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının katibliyindən çıxarılmış, həmin il dekabrın 9-da ov tüfəngi ilə intihar etmişdir.

Müğənni Şövkət Ələkbərovanın həyat yoldaşı olmuşdur.

Azərbaycan Dövlət Film Fondunda rejissor Lətif Səfərovun şəxsi arxivi yaradılmışdır.

# Astarada "VI Azərbaycan-Alman-Türk Tibb Konqresi" və "VIII Bakı Beynəlxalq Tibbi Treyninq Günləri" keçirilib

***26 aprel 2023-cü il tarixində Mərkəzi Gömrük Hospitalında akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş anım tədbiri keçirilib. Tədbirdən öncə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov və nümayəndə heyəti Fəxri xiyabana gələrək müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.***

Mərkəzi Gömrük Hospitalında keçirilən tədbirdə Azərbaycan Respublikası Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Tibbi Xidmət İdarəsinin rəis müavinləri İsmayıl Əfəndiyev və Fərid Əbilov, Mərkəzi Gömrük Hospitalının baş həkimi Bəxtiyar Musayev, könüllü gömrükçülər və əməkdaşlar iştirak ediblər.

Anım mərasimini giriş sözü ilə açan Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, 2023-cü ilin Azərbaycanda iki unudulmaz insanın - müasir Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan elminin ən parlaq simalarından olan görkəmli oftalmoloq alim və həkim Zərifə xanım Əliyevanın 100 illik yubileylərinin qeyd olunması ilə əlamətdar olduğunu qeyd edib.

C.Məmmədov ilk növbədə, Azərbaycanın görkəmli alimi, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın bir alim kimi gələcək nəsillərə nümunə olacaq elmi fəaliyyətindən danışıb, alimin keçdiyi şərəfli ömür yolunu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi adlandırıb.





O, bildirib: ***"Sıravi həkimlikdən akademik zirvəsinə ucalan Zərifə xanımın elmi araşdırmaları, alim kimi qazandığı böyük uğurları Azərbaycanın tibb elmi tarixində xüsusi yer tutur. O, elmdə heç vaxt asan yol axtarmırdı, keçilməmiş yollarla gedib, yeni cığırlar salırdı, öz elmi araşdırmalarını praktik əhəmiyyət daşıyan aktual mövzulara həsr edirdi. Bu, Zərifə xanımın ən böyük dəyərlərindən biridir".***

Ceyhun Məmmədov Zərifə Əliyevanın gözəl ana, sədaqətli ömür-gün yoldaşı olduğunu qeyd edərək, Ümummilli Liderimizin xalqı üçün gördüyü böyük işlərdə bu gözəl insanın əməyinin, istedadının, qəlbinin də bir zərrəsi olduğunu vurğulayıb.

Sonra akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr edilmiş və tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanmış video material təqdim olunub.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimi Yazgül Abdiyeva, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin elmi-təcrübi tədris mütəxəssisi Şəhla Mirzəzadə və könüllü gömrükçü Leyla Mollayeva akademik Zərifə Əliyevanın tibb elminə verdiyi töhfələrdən danışıblar. Tədbirin sonunda xatirə şəkli çəkilib.

**Dilara Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Bakcell "Formula 1 Azərbaycan Qran Prisi"nin rəsmi dəstəkçisidir

Bakcell Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) ilə "2023 Formula 1 Azərbaycan Qran Prisi"nin rəsmi dəstəkçisi olmasına dair müqavilə imzalayıb. Abunəçilərinə ultra-sürətli internet vasitəsilə ən innovativ xidmətlərdən yararlanmaq imkanı yaradan Bakcell bu dəfə yüksək sürətdən zövq alan Formula 1 azarkeşlərini sevindirəcək.

**"Azərbaycanın ən sürətli mobil şəbəkəsi olan Bakcell Formula 1 təqviminin ən sürətli şəhər treklərindən olan Bakı Şəhər Halqası ilə tərəfdaşlıqdan məmnundur. Əminəm ki, bu tərəfdaşlıq Formula 1, avtoidman və yüksək sürət həvəskarları üçün faydalı və əyləncəli olacaq",** - deyə Bakcell şirkətinin baş icraçı direktoru Klaus Müller bildirib.

Tərəfdaşlıq çərçivəsində "Formula 1" yarışlarındakı Azneft tribunası "Bakcell" adlandırılıb. Tribuna ərazisində yerləşən istirahət və əyləncə zonasında azarkeşlər "Bakcell"in ultra-sürətli şəbəkəsini sınaqdan keçirmək, həmçinin, müxtəlif oyun və əyləncələrə qatılmaq imkanı əldə edəcək.

Bundan əlavə, şirkət yarış günlərində "Bakcell" tribunası yaxınlığında yerləşən əyləncə zonasında öz məhsul və xidmətlərini Azərbaycan Qran Prisinin tamaşaçılarına nümayiş etdirəcək.

Bakcell şirkəti Formula 1 yarışı zamanı abunəçiləri yüksək keyfiyyətli səs və internet xidməti ilə təmin etmək üçün Bakının mərkəzində, xüsusilə yarışların keçiriləcəyi ərazilərdə mobil şəbəkənin tutumunu yüksək dərəcədə optimallaşdırıb. Yarış zamanı mobil xidmətlərin istifadəsində yaranacaq irihəcmli trafik tələblərini qarşılamaq üçün Dənizkənarı Bulvar ərazisində əlavə müasir mobil baza stansiyaları quraşdırılıb. Bundan əlavə, xüsusi təyin edilmiş personal tərəfindən yarış ərazisində 24 saat ərzində şəbəkəyə və digər texniki məsələlərə nəzarət aparılacaq. Həmçinin, Bakcell Məlumat Mərkəzi də 24 saat ərzində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.

Qeyd edək ki, 2019-cu ildə Bakcell "Formula 1 Azərbaycan Qran Prisi"nin ilk rəsmi dəstəkçisi olub.

"NEQSOL Holding"in tərkibinə daxil olan Bakcell Azərbaycanda VoLTE və eSIM texnologiyalarını tətbiq edən ilk mobil operatordur. 2023-cü ilin əvvəlində şirkət Bakının seçilmiş ərazilərində 5G-nin sınaq tətbiqini elan edib. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.




# Türkiyəyə nüvə enerjisi olan ölkə statusu veriləcək

Türkiyə aprelin 27-də Akkuyu Atom Elektrik Stansiyasına ilk nüvə yanacağı verilməsi ilə nüvə enerjisi olan ölkə statusu qazanacaq.

Daha sonra elektrik stansiyasında yanacaq sınaqları və sertifikatlaşdırma prosesləri başlayacaq.



Qeyd edək ki, Akkuyu Atom Elektrik Stansiyası 2010-cu il mayın 12-də Türkiyə və Rusiya prezidentləri arasında imzalanmış müqavilə çərçivəsində Türkiyənin Mersin vilayətinin Büyükeceli bölgəsində tikilib.

2018-ci ilin aprel ayında birinci reaktorun, 2020-ci ilin iyun ayında ikinci reaktorun, 2021-ci ilin mart ayında üçüncü reaktorun, 2022-ci ilin iyun ayında isə sonuncu reaktorun təməli qoyulub.

# Avropa İttifaqı Irana qarşı yeni sanksiyalar tətbiq edib

Avropa İttifaqı (Aİ) İrana qarşı yeni sanksiyalar tətbiq edib. Sayca yeddinci sanksiyalar paketində İran İslam Şurası Məclisinin üzvlərinin Aİ ərazisinə girişi qadağan olunub.

İranın maşınqayırma sənayesinə qarşı da sanksiyalar tətbiq edilib. İranın avtomobil istehsalçıları artıq Avropa ölkələrindən heç bir cihaz və ya avadanlıq ala bilməyəcəklər.

Bununla yanaşı, sanksiyalar siyahısına İran İslam İnqilabı Keşikçiləri Korpusunun bəzi zabitlərinin adları da əlavə olunub.

Aİ-nin qərarında sanksiyaların İranda insan hüquqlarının kobudcasına pozulduğuna görə tətbiq edildiyi açıqlanıb.

İranın Xarici İşlər Nazirliyinin nümayəndəsi Nəsir Kənani yeni sanksiyaları "qərəzli" adlandırıb.

# Avropa İttifaqı birgə qaz tədarükü prosesinə start verib

Avropa İttifaqı müştərək qaz tədarükü prosesinə keçir.

Artıq ittifaqa üzv ölkələrdə fəaliyyət göstərən kompaniyalar xüsusi portala sifariş yerləşdirə biləcəklər. Avropa Komissiyasının bəyanatında birgə tədarük prosesinə keçid növbəti qış mövsümünədək qaz anbarlarının doldurulması və beynəlxalq tərəfdaşlarla daha münasib qiymətə razılaşmaların əldə olunması üçün vacib addım adlandırılıb. Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin sözlərinə görə, aprelin 25-dən başlayaraq kompaniyalar qaza olan tələbatlarını "AggregateEU" portalında qeydiyyatdan keçirə bilər. **"Biz tələbatımızı birləşdirib kollektiv gücümüzü istehlakçılar üçün qiymətlərin yaxşılaşdırılmasına yönəldəcəyik",** - deyə Ursula Fon der Lyayen bildirib. Bir müddət öncə Avropa Komissiyası aprelin ortalarına qədər müştərək qaz tədarükü prosesinə başlayacağını, yayda isə Avropa İttifaqı səviyyəsində qaz idxalı üçün ilk müqavilənin bağlanacağını elan etmişdi.

# Fransanın enerji həmkarlar ittifaqları "100 gün aksiya və qəzəb" elan edib

Fransada pensiya islahatı təsdiqlənib qəbul olunsa da, etiraz nümayişləri və tətillər davam edir.

Fransa Mədən və Enerji Milli Federasiyasının həmkarlar ittifaqları (FNME CGT) ölkədə keçiriləcək beynəlxalq tədbirləri qaranlığa qərq etməklə hədələyirlər. Onlar "100 gün aksiya və qəzəb" elan ediblər. "Makron ölkədə sakitliyin bərpa olunması üçün 100 gün vəd etdi, biz ona 100 gün aksiya və qəzəb vəd edirik! İstefaya yol uzaqdır", - deyə həmkarlar ittifaqları etirazları davam etdirəcəklərini bildiriblər. Belə ki, aksiya çərçivəsində hökumət üzvlərinin əyalətlərə səfərləri zamanı enerji verilişi dayandırılacaq. Həmçinin may ayında gözlənilən Kann film festivalı, Monako Qran-Prisi, Avinyon Festivalı, Roland-Qaros tennis turniri zamanı elektrikin kəsiləcəyi gözlənilir. FNME mayın 3-nü ölkədə qəzəb günü elan edib.




**Azəri Light və Brent markalı neftin bir barelinin 19 – 26 aprel tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**